# COĞRAFİYA

## TƏBRİZ ŞƏHƏRİNİN İNKİŞAFININ TƏBİİ-İQTİSADİ POTENSİALI

**V.Ə.ƏFƏNDİYEV*, N.Ə.EHTEŞAM HACİPUR****
***Bakı Dövlət Universiteti, **İran İslam Respublikası***

*Məqalədə Təbriz şəhərinin təsərrufat strukturunun inkişafında və formalaşmasında əsas təbii-iqtisadi şərtlərin rolundan bəhs edilir. Əsas iqtisadi inkişaf mərkəzləri müəyyənləşdirilir, onların yaranmasında Təbriz şəhərinin rolundan bəhs edilir.*

Təbriz ölkənin şimal-qərb zonasında ən boyük, çox əhalili şəhəridir və tarixi etnik cəhətdən ən böyük mərkəz olmuşdur. Bu coğrafiyada ən mühüm idari, xidmət və iqtisadi mərkəzdir. Təbriz Şərqi Azərbaycan ərazilərlə mərkəz olmaqla və ətraf ərazilərlə kəmiyyət və keyfiyyət baxımdan üstün mövqeye malıkdir. Əhalı baxımından neçə yuz km dairə çərçivəsində Təbrizə oxşar ikinci bir şəhər yoxdur. Təbrizin nüfuz məntəqəsi geniş sahəni tutur və Şərqi Azərbaycan sərhədlərindən başqa, Qərbi Azərbaycanın, bütün ərazisi Zəncan və Kürdüstan ostanlıqlarının sahələrinin bir qismini əhatə edir. Bu çərçivə daxilində əsas yollar Təbrizə birləşir və ümumiyyətlə, Təbriz ölkənin şimal-qərb məntəqəsinin rabitə və kommunikasiya şəbəkəsinin toqquşduğu yerdir. Təbriz bazarı qədim zamanlardan geniş nüfuz dairəsinə malik olmuşdur və indiki dövrdə də nüfuz dairəsi çərçivəsində əsas mal ixracı mərkəzi hesab edilir. Köhnə bazardan başqa, son onilliklərdə bank mərkəzləri və iqtisadi qurumların inkişafı sayəsində şəhərin iqtisadi funksiyalarının növ və miqdarı artmış və bu məntəqə də qüdrətli şəhər mərkəzinə çevrilmişdir.

Təbriz öz nüfuz dairəsı çərçivəsində xıdmət imkanları baxımından yüksək mövqeyə malikdir. Üstün xidmətlərin olması, o cümlədən təhsil departamentləri (universitetlər), səhiyyə (xəstəxanalar), nəqliyyat (aeroport), yükdaşıma binalan (terminal, vağzal) və sair üstün xidmətlər buna səbəb olmuşdur ki, indiki və gələcək xidmət şəbəkəsində prioritet rolu Təbriz oynasın. İstiqrar baxımdan Təbriz münasib mövqeyə malikdir. Bu mövqe, tarixi Azərbaycan yurdunun artması və ölkənin ən bərəkətli torpağı olan ovalıqların zirvəsi deməkdir. Təbrizin münasib mövqeyi ətraf fəzaların yaxşı mövqedə əhatə etməsidir. Bu fəzalar şimal-cənub və qərb-şərq istiqamətində geniş ərazidə çəkilmişdir və Təbrizlə möhkəm əlaqədə olmuşdur, müxtəlif rabitə şəbəkələrilə öz tələbatını əldə edir. Təbriz bu fəzaların qəlbi və yaşayış məntəqəsi fəzaların skeletinin mərkəzidir.

Azərbaycan 110 min $km^2$ sahə ilə ölkənin 7%-ni təşkil edir və əhalisi 6,08 milyon nəfərdir. 1985-ci ilin statistikasına görə ölkə əhalisinin 12,3%-i bu şəhərdə yerləşir. Əhalinin sıxlığı burada başqa ərazilərdən iki dəfə artıq olub, hər 1 $km^2$-ə 572 nəfər düşür.

Təbrizin nüfuz etdiyi fəzaların sahəsi ayrı-ayrı sahələrdən ibarətdir. Bu sahələr dairə şəklində olmuş ki, onların mərkəzi Təbrizdir. Təbriz şəhərinin müxtəlif funksiyalarına, keyfiyyət və kəmiyyətlərinə görə bu dairələrin diametri fərqlənir. Bu laylanmalarda Təbriz nüfuzu, diametrin uzununun azalması miqyasına görə çoxalır. Bu laylanmanın əsasının təyin edilməsi, Təbriz funksiyasının indiki vəziyyəti və bu fünksiyaların coğrafı sahələrdə dəyərləndirməsi deməkdir. Bu tədqiqatın nəticələri, bu nüfuz dairələrində mərtəbələrinin necə fəza sahəsindəki göstəricisidİr.

Təbrizin ümummilli nüfuz dairəsi iqtisadi funksiyalarının təsiri altında formalaşıb. Bu sahə Azərbaycan ostanlığının, Qərbi Azərbaycan ostanlığının, Zəncan ostanlığının və hətta Kirmanşah ostanlığının ərazisindən ibarətdir. Bu sahədə çox sayda şəhərlər yerləşir ki, bazarları Təbriz bazarı ilə əlaqəlidir. Bu nüfuz dairəsində Təbrizin köhnə bazarı qədim tarixi hegemonluğa malikdir və yeni iqtİsadi müəssisələr, qurumlar keçmişdəki nüfuzu davam etdirir və möhkəmləndirir. Müxtəlif yüksək xidmət sahələri, o cümlədən aeroport, neftayırma, universitetlər, ehtiyat anbarları və s. ümummilli nüfuz dairəsində iqtisadi xidmətləri təkmilləşdirirlər. Səbəbsiz deyil ki, həmişə ümummilli bölgüdə iqtisadi məhvərlərin inkişafında idarə mərkəzi Təbriz olmuş, potensial və hazırkı imkanlarına görə, bu sahədə fəal iştirak edə bilmişdir.

Azərbaycan Şərqi Azərbaycan ostanlığını və Qərbi Azərbaycan ostanlığını əhatə edir. Ərazisinin sahəsi 110 min km$^2$-dir. Qədim dövrlərdən bu tarixi ştat azəri dilli etnosların məskəni olmuş, Təbriz bu əyalətin mərkəzi olmuş və indıki dövrdə də çoxsaylı iqtisadi və mədəni funksiyaların əsası da bu mərkəz nüfuzu qalır. Təbrizin keyfıyyət və kəmiyyət baxımdan inkişafı Azərbaycan yurdunun gələcək prosesləri ilə sıx əlaqədədir, bu səbəbdən Azərbaycan yurdunun indiki durumunun təhlili və onun inkişafında strategiyaların proqnozlaşdırılması Təbriz şəhər məntəqəsinin ilkin tədqiqatında diqqət mərkəzində olmuşdur. Yurdun əhalisinin 76,6%-i Şərqi Azərbaycan ostanlığında yerləşir və Azərbaycan yurdunda Urmiya gölü əhalinin sıxlığı baxımdan birinci yerdədir. Azərbaycan yurdunun əhalisinin 48%-i şəhərlərdə məskunlaşmışdır və 60 şəhər mərkəzlərində yerləşir (orta həsabla 50 min nəfər əhalidir). Təbrizdən başqa, ən mühüm şəhər mərkəzlərindən Urmiya (305 min nəfər), Ərdəbil (284 min nəfər), Xoy (116 min nəfər) və Marağa (103 min nəfər) və az əhalisi olan şəhər-kəndlərdən ibarətdir.

Yurdun başqa yaşayış fəzaları kəndlər və həmişə aşirət oturaqlardan ibarətdir. Məntəqənin kənd yerləri, kənd, əkin sahələrindən ibarətdir ki, sayı 8349-a çatır. Məntəqənin kəndlərinin 30%-nin əhalisi 100 nəfərdən azdır. Bu kəndlər məntəqədə pərakəndə formada, xüsusilə yüksəkliklərdə yerləşir. Bu kəndlərdə qeyri-münasib iqtisadi qüvvə, əhalini təmin etmədiyi üçün bu yerlərdə kənd əhalisinin mühacirəti çox ardıcıldır. Mühacirlər şəhərciklərə, yurdun şəhərlərinə və nəhayət, Təbrizə üz tuturlar. Əhalisi 500 nəfərdən çox olan kənd mərkəzləri Azərbaycan yurdunun kəndlərinin 22%-ni təşkil edir ki, əsasən ovalıqlarda şəhərətrafı zonalarda və Urmiya gölünün ətrafında yerləşir. Təbriz şəhəri və Urmiya gölü ətrafı, sıx əhalili olan kəndlərin əsas fəzasıdır. Çoxlu sayda kənd-şəhərlərin peyda olması və yurddakı şəhərlərin inkişafı, çox əhali olan kəndlərin inkİşafı və bir-birilə birləşməsi şəhərlərin inkişafında olan fəzalarında əmələ gəlmişdir. Azərbaycan yurdunun kənd fəzalarında çox sayda kənd yerləri var ki, münasib təbii, iqtisadi və fiziki imkanlarına görə, gələcəkdə şəhər kimi formalaşmaq potensialına malikdir. Yurdun sakinlərinin bir hissəsi köçəridir. Bu əhali 13425 ailədən iba-

rətdir ki, fərqli yaşayış tərzi var və Şahsevəndə, Qaradağda (11 tayfa), yurdun şərqində və qərb zonada çoxlu tayfalardan ibarətdir. Yurdun əşirət ailələri 3032 obada yerləşirlər ki, onların böyük hissəsinin yaşayış sahəsı yurdun şimal-şərq zonasıdır (Savalandan Muğana qədər və Arasbaran yüksəklikləri). Yurdun kənd aşayış fəzaları, xüsusən şərq zonada əhali artımı baxımdan çox azdır. Hərçənd kəndlilərin mühacirəti təbii bir hadisədir, ancaq heç bir nizam-intizamla idarə olunmur və nəticədə mühacirət mənfi fəsadlara səbəb olmuşdur. Xüsusilə Təbriz şəhəri Azərbaycan yurdunun daxilindəki mühacirətlərin əsas hədəfidir. Azərbaycan yurdunun inkişaf strategiyasının layihəsində Təbriz şəhəri üçün ən həlledici rol nəzərdə tutulmuşdur.

Azərbaycan yurdu torpağının münbitliyinə görə, ölkənin bərəkətli məntəqələrindən biridir. Xəritədən görünür ki, yurdun əkinçilik sahələrində torpağın bərəkətli olması və müxtəlif meşələr və yaşıllıqlar baxımından zəngindir. Azərbaycan yurdu öz təbii imkanları və zəngin qaynaqlarının hesabına, kəmiyyət və keyfiyyət baxımından əkinçilik və maldarlıqda müstəsna rola malikdir. 2,4 milyon hektar əkin sahələri (ölkə əkin sahələrinin 1/6 təşkil edir) və 12 milyona, yaxın maldarlıq fermaları ölkənin əkin sahələrinin ən mühüm hissəsini təşkil edir. Azərbaycan yurdunun əkinçilik sahələri əsasən yurdun orta zonasında, xüsusən Təbriz ovalığında və Urmiya gölünün kənar hamar sahələrində yerləşir. Suvarma üsulu ilə balaca ovalıqlarda və dağ dərələrində (yağış suyu hesabına), yurdun susuz təpələrində, daha çox dağlıq zonalarda həyata keçir. Xəritədə yurdun sahələrinin növləri göstərilir. Ərazidə əkinçilik sahələrinə aid olmayan torpaqlar əsasən yüksəklikdə bitki örtüyü olan torpaqlardır ki, kənd və əşirətlərin maldarlıq fəaliyyətləri fəzalarına həsr olmuşdur.

Azərbaycan yurdunun əkinçilik və maldarlıqda istehsal olan ərzaq malları keyfıyyət baxımdan yüksək olduğu üçün Təbriz bazarlarına göndərilir. Azərbaycan yurdu öz təbii imkanları və tarixi şəhərlərinin hesabına münasib sənayeyə malik olmuş və müasir dövrdə də ölkənin sənaye məntəqələrindən biridir. Ölkənin böyük sənaye obyektlərinin 7,6%-i burada yerləşir. Yurdun sənayesi müxtəlif təbii imkanları və xammalı hesabına, münasib coğrafı mövqeyi, kommunikasiya xətləri və ölkənin rabitə vasitələri Avropa ilə olan mal ixracatı və idxal çox geniş və çeşidli olmuş və müxtəlif sənaye fəaliyyətlərini əhatə edir.

Yurdun böyük müəssisələrin fəzadakı paylanması bu obyektlərin yurdun orta sahəsində, xüsusən Təbriz şəhəri ətrafında çox sıx şəkildə yerləşdiyini göstərir. Son statistik məlumatların nəticələrinə görə, 19 min topdansatıs və 85 min pərakəndə satış müəssisələri yurdun ticarət şəbəkəsində fəaliyyət göstərir. Bu şəbəkənin böyük hissəsi (92,5%-i topdansatış və 73,2%-i pərakəndə satış yerləri) şəhərlərdə yerləşir. Xüsusən Təbriz şəhəri bu şəbəkənin mərkəzindədir.

Təbriz səhərinin yanindakı ticarət müəssisələri yalnız kəmiyyət baxımından çoxluğuna görə yox, həm də funksıyasına görə başqa şəhərlərdən üstün mövqedədır. Yurdun şəhərlərinin topdansatış yerləri Təbriz ticarəti müəssisələrinin vasitəsi hesab olunur. 500 min nəfərin xidmət sektorunda məşğul olması və onlann 75%-nin şəhərlərdə və əsasən şəhər tipli xidmət sahələrində (sosial və ticarət xidmətləri) yerləşməsi Təbriz şəhərinin Azərbaycan yurdundakı xidmət sahəsində əhəmiyyətini göstərir. Çünki ən çox məşğulluq və ən çox xidmət sahə mütəxəssisləri Təbriz şəhərində cəmlənmişdır. Azərbaycan yurdunda fəaliyyətlərin yerləşdiyi fəzaların çoxu Təbriz şəhərində yerləşdiyinə görə, şəhəri bütün yaşayış və fəaliyyət sferasının geniş əhatəli funksiyası, həmişə Təbrizi yurd miqyasında layihələrin icraçısı

rolunda olması ilə səciyyəlidir. Xəritədə Azərbaycan yurdunun İran İslam inqilabından əvvəlki əsas inkişaf ölçüləri, ölkənin strateji inkişafının layihəsi göstərilir. Bu xəritədə Azərbaycan yurdunun inkişaf fəzasının skeletində Təbrizin mərkəz rolu göstərilib.

Belə vəziyyət qərb məhvərinin inkişaf proqramında nəzərdə tutulmuşdur. Azərbaycan yurdu, qərb məhvərinin üstü və Təbriz mərkəzliyi məhvərin əsas mərkəzini təşkil edir. Xəritədə Təbrizin mərkəzi və üstün mövqeyi şimal-qərb məhvərindəki inkişaf dairəsində göstərilir.

Şəhərin iqtisadiyyatında müxtəlif sektorların dəyərinin təyini, lazımı statistika əldə olmadığına görə, imkansızdır. Buna baxmayaraq Təbriz şəhərinin sənaye, xidmət və kənd təsərrüfatı daxili məhsulun, 83,84,85-ci illərdə cari qiymətlər və sabit qiymətlər haqqında, 1973-cü ilin əsas qiymət dəyərinin təyin olunmaq şərtilə, əldə olan nəticələr göstərilir. Şərqi Azərbaycan ostanlığının müxtəlif sektorlarının daxili məhsul dəyəri, qeyd olunan illərdə onu göstərir ki, ostanlığın ölkə daxili məhsul dəyərinin payı, həmişə öz əhalisinin nisbətinin ölkə əhalisi nisbətindəkinə görə, kəsiri var. Bu ostanlığın əhalisi 1985-ci ildə ölkə əhalisində 8,3%-ni təşkil edir. Halbuki, ostanlığın məhsulunun dəyəri (kənd təsərrüfat sektorunda 6,34%, sənayedə 4,54% və ümumi xidmət sektorunda 6,8% bütün ölkə məhsulunun dəyərinə görə) əhalinin payına görə nisbətən azdır. Bu göstərici ostanlığın mühacirət etməsnin əsas səbəbini göstərir.

İran mərkəzi bankı tərəfindən nəşr olunan rəqəmlərdə, Təbriz şəhəri iqtisadi sektorların məhsulunun dəyərini təyin etmiş, ölkənin iqtisadi sektorların məhsul dəyəri bu illərdə qeyd olunub və əsas tutulmuşdur. Ostanlığın payı qeyd olunduğu kimi, müxtəlif sektorlarda təyin olunub və nəşr olunmuşdur. Nəticədə Ş.A. ostanlığının məhsul dəyərində Təbriz şəhərinin payı, bu şəhərin işçilərinin, ostanlıqda olan işçilərinin nisbətinə olan paydan hesab olunmuşdur və cədvəllərdə qeyd olunur. Bu hesabla Təbrizdə daxili məhsul dəyərinin payı bütün ostanlığa nisbətdə kənd təsərrüfat sektorunda 37,29% təyin olunub. Bu fərzlərin hesabının əsasında Təbriz şəhərində və ostanlığın başqa yerlərində işçi qüvvəsinin həqiqi dəyəri bir dərəcədə olmuşdur. Halbuki, Təbriz şəhərində başqa yerlərlə nisbətdə, yüksək mütəxəssislərinə görə həqiqi dəyəri daha çoxdur. Bu səbəbdən qətiyyətlə Təbriz şəhərinin məhsul dəyərini cədvəldə verilən rəqəmlərdən çox hesab etmək olar. Göründüyü kimi, Təbriz şəhərində kənd təsərrüfat sektorunun məhsul dəyəri 1983 – 1985-ci illərin sabit qiymətlərilə müqayisədə artmış və 1983-cü ildə 35% və sonrakı illərdə 38% və 42% artmışdır. Lakin şəhər iqtisadiyyatının əsas sektorla, yəni sənayeyə xidmət sektorları bu 3 ildə məhsul dəyərinin xeyli miqdarda azalması ilə üzləşir. Bu illərdə sənaye sektoru 10,8-dən 10,5 və 8,8 milyard riyala və xidmət sektorunun məhsul dəyəri 46,9-dan 47,6 və 42,8 milyard riyala tənəzzül etmişdir. Abadlıq işləri üçün vəsaitin azalması ilkin xammalın və orta idxal olunan materialların qıtlığı, neft qiymətinin şiddətlə azalmasından və ölkənin valyuta gəlirlərinin azalmasından irəli gəlir. Bu son illərdə abadlıq işləri üçün ayrılmış vəsaitin miqdarının azalması tam şəkildə hiss olunur. Belə ki, 1985-ci ildə ostanlığın 50,9 milyard riyal abadlıq vəsaiti 1986-cı ildə 19,8 milyard riyal azalıb və 1987-ci ildə çoxalmış və 25,3 milyard riyala çatmışdır. Qeyd etmək lazımdır ki, bütün ölkəyə nisbətdə, abadlığa ayrılan vəsaitdən ostanlığın payı 85-ci ildən 87-ci ilə qədər ardıcıl olaraq 6,9%, 3,99% və 3,95% olmuşdur. Yəni bütün ölkədəki ostanlığın əhalisinin nisbətindən azdır. Belə bir şəraitdə Təbriz vilayətinin payı ostanlığın abadlıq vəsaitində (86,87-ci illərdə 69,7%) və 44,3% olmuşdur, yəni vila-

yət əhalisinin nisbəti ostanlıq əhalisinin nisbətindən daha çoxdur. Tədqiqat göstərir ki, Təbriz şəhərində son illər abadlıq işləri üçün vəsaitin azalması və ixtisarlaşması müşahidə olunur. Təəssuflər olsun ki, abadlıq vəsaitinin miqdarından və büdcənin bölünməsi haqqında əldə bir məlumat olmadığına görə hazırkı məqalədə bu haqda təhlil vermək mümkün olmadı.

Əsas iqtisadi fəaliyyətlərin tədqiqı, ıstehsal fəaliyyətləri, xidmət sahələri, şəhərin məntəqədəki funksiyası və rolu, Təbrizin başqa oxşar şəhərlərlə müqayisəsi, şəhər işçi qüvvəsində xidmət sektorunun üstün rolunu göstərməklə birgə, şəhərin sənaye əhəmiyyətli roluna işarə edir. Bir tərəfdən xldmət sektoru şəhər işçi qüvvəsinin tərkibində ən böyük rola malikdir və digər tərəfdən sənaye sektoru ölkənin orta payının meyarında başqa oxşar şəhərlərin meyarından çoxdııř. Eyni zamanda istehsalatda, nəqliyyatda işləyən fəhlələr, bütün ölkənin oxşar şəhər məntəqəsinin nisbətindən ən əsas iş qrupunda daha çoxdur.

Şəhər işçilərinin tərkibinin analizi daha dəqiq tədqiq olunmasa, şəhər iqtisadiyyatının funksiyası və rolunun üstün xarakterləri aydın olmur. Əvvəldə qeyd etdiyimiz kimi, 1975-ci ilə qədər, şəhər işçi qüvvəsinin tərkibində ən böyük pay sənaye sektoruna aid olub. 1985-ci ildə ümumi xidmət sektoru ilk dəfə olaraq, birinci yeri tutmuş və şəhər işçi qüvvəsinin 63%-i bu sektordan olması daha çox diqqət və tədqiqat tələb edir. Xidmət sektorunun yarımqrupdakı işçilərin bölünməsinin vəziyyətinin tədqiqi göstərir ki, bu sektorun işçilərinin 60% «ictimai və şəxsi xidmət» əsas qrupunda məşqul olmuşdur. İşçilərin 32%-nin bu əsas qrupda olması (əgər məsələnin detallarını nəzərə almasaq), xidmət fəaliyyəti xüsusən ictimai xidmət sahəsinin genişliyi və şəhər işçilərinin xidmət sektorundakı payının yanında üstünlüyünü göstərir, halbuki əslində belə deyildir Bu sektorun əsas qruplarının detallarının tədqiqi göstərır ki, 10 il boyu, 75-ci ildən 85-ci ilə qədər yeni iş yerləri əmələgətirmə imkanı 112% artmış və 33795 nəfərdən 74093 nəfərə çatmışdır. «İctimai xidmət» əsas qrupunda 75-ci ildə 38,87%-lə ən əsas olmuş və ondan sonra «ümumi iş və müdafiə idarəsi» 38,8%-lə sonrakı yerdə yerləşir.

10 il müddətində bu iki əsas qrupun vəziyyətində yaranan dəyişmələr, hazırki çoxlu şübhələri aradan qaldırıb və şəhər iqtisadiyyatında üstün xarakterlərin diaqnostikasında qətiyyətli təsirlər buraxmışdır. Halbuki, xidmət sektoru 10 il ərzində 67,5% qədər yeni iş yerlərinin artması olmuşdur. «İctimai və şəxsi xidmət» əsas qrupun yeni iş yerlərinin artma imkanı 119% və «ümumi işlər və müdafiə idarəsi» əsas qrupunda yeni iş yerlərinin yaranma imkanı 238% olmuşdur. Belə ki, «ictimai və şəxsi xidmətlərin» tərkibində və «ümumi işlər və müdafıə idarəsi» əsas qrupu 69,7% -lə ən çox paya malik olmuş və ümumi xidmət sektorunun yarımqrupları yalnız 50,5%, yeni iş yerlərinin artımı ilə və 26,71 %-lə sonrakı yerdə yerləşir. Aşağıdaki cədvəl mübahisə olan mövzunu daha da aydınlaşdırır.

Cədvəldən göründüyü kimi, nisbətlərdən başqa, rəqəmlərdə bir sira məsələləri izah edə bilərlər. 10 ildə «ictimai və şəxsi xidmət» əsas qrup işçiləri 33795 nəfərdən 74093 nəfərə artmışdır, halbuki, «ümumi işlər və müdafiə idarəsi» əsas qrupda işçilər 13104 nəfərdən 44300 nəfərə artmışdır və özü təklikdə şəhər işçilərinin 19% -ni təşkil etmişdir. Halbuki, «ictimai xidmət» əsas qrupunda işçilərin sayı 13143 nəfərdən 19784 nəfərə çatmış və 85-ci ildə şəhər işçilərinin yalnız 8,6%-ni təşkil edir. «Şəxsi və ev xidmətləri» yarımqrupunun dəyişmələri 6935 nəfərdən 9021 nəfərə çox cüzidir. Bu amillərin məcmuəsi buna dəlalət edir ki, xidmət sektorunda kəmiyyət sıçrayışı şəhər işçilərinin tərkibində, keçmİş 10 ildə keyfiyyət sıçrayışı ilə müşayiət olunmayıb. Nəticədə sənaye sektorunun kəmiyyət artımını sax-

layan amillər yanındakı bu sahənin kəmiyyət artımını geriyə salmış, iqtisadi sektorların zahiri sürətinin kasıb olmasını göstərir.

**Cədvəl 1**

Xidmət sektorunda çalışanların dinamikası

| **İllər** | | **85-ci 95-ci** | | | |
|---|---|---|---|---|---|
| | say | % | say | % | dəyismə |
| İctimai və şəxsi xidmətlər | 33795 | 100 | 74093 | 100 | + 119 |
| Ümumi işlər və müdafiə idarəsi | 13104 | 38,8 | 44300 | 38,8 | +238 |
| İctimai xidmətlər | 111 | 0.33 | 273 | 0.33 | + 146 |
| Ekoloji sağlamlaşdırma | 13143 | 38,87 | 19784 | 26,71 | +50,5 |
| İctimai xidmətlər | 487 | 1.44 | 697 | 0,94 | +43 |
| Mədəni və əyləncə xidmətləri | 6935 | 20,53 | 9021 | 12,17 | +30 |
| Dövlət idarə orqanlari | 15 | 6,04 | 18 | 0,02 | +20 |

Təbrizdəki böyük sənayenin ölkə miqyası və ostanlığın böyük sənaye obyektlərinin 55%-dən çoxunun bu şəhərdə «sənaye mərkəzləri» və 13438 kiçik və böyük sənaye müəssisəsi, 51161 nəfər işçinin qabağında (3,8 nəfər hər bir kiçik və böyük sənaye müəssisəsinin hesabına) Təbrizin «sənaye genişliyini» şəhərin iqtisadi funksiyasında qabarıq rolu kimi göstərir. 31% işçilərin bölgüsü «müstəqil işçi» vəziyyətindəki göstəricisi ölkə şəhər məntəqələrinin oxşar faizindən (29,2%) çox olması, eyni halda kiçik miqyaslı fəaliyyətlərin genişliyi, həm istehsalda və həm Təbrizin indiki vəziyyətində sahibkarların nisbəti 3,24%-lə, ölkədə şəhər məntəqələrinin nisbətindən 3,5% daha aşağıda yerləşir.

**Cədvəl 2**

Təbriz şəhəri iqtisadi sektorlarının daxili məhsulların miqdarı amil qiymətlərə görə: 1983

| **İqtisadi sektorlar** | **Daxili məhsul (milyard riyal)** | | | | | |
|---|---|---|---|---|---|---|
| | Cari qiymətlərə nisbət | | | sabit qiymətlərə nisbət | | |
| | Bütün ölkə | ŞA.ost. | Təbriz şəhəri | Bütün ölkə | Ş.A.ost. | Təbriz şəhəri |
| Kənd təssər. | 2493,9 | 158,1 | 2 | 446,7 | 28,3 | 0,35 |
| Sənaye ** | 2565,8 | 116,5 | 39,2 | 705,1 | 32 | 10,8 |
| Xidmət sahələri | 8375,9 | 586,3 | 218,6 | 1871,8 | 131 | 48,9 |

*-əsaslanmış ilə görə, **-nefti nəzərə almaqdan

**Mənbə:** İran mərkəzi bankı. Abadlıq işləri üçün vəsaitin miqdarının müqayisəsi, Ş.A. ostanlığı və bütün ölkə 1985 – 1987-ci illər.

**Cədvəl 3**

Abadlıq işi üzrə vəsaitin miqdarı (milyard riyal)

| İl | Bütün ölkə | | Şərqi Azərbaycan ostanlığı | | | | Təbriz vilayəti | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | milli | ostanlıq. | milli | ostanlıq | saır | cəmı | milli | ostanlıq | saır | cəmı |
| 1985 | 555,9 | 36,6 | 36,6 | 12,5 | 1,8 | 50,9 | * | 1,7 | 1,1 | * |
| 1986 | 981,8 | 114,8 | 9,9 | 7 | 2,9 | 19,3 | 8,2 | 1,9 | 3,7 | 13,8 |
| 1987 | 470,6 | 169,6 | 11,1 | 9 | 5,2 | 25,3 | 5,5 | 2,2 | 2,2 | 11,2 |

*- təyin olunmamış **Mənbə:** planlaşdırma və büdcə nazirliyi

## ƏDƏBİYYAT

1. Şərqi Azərbaycan ostanının mədəni, ictimai və iqtisadi inkişafının 3-cü proqramı (1376 – 1383) proqramlaşdırma və idarəetmə təşkilatı.
2. V.Ə.Əfəndiyev, S.Q.Nağıyev. Əhali coğrafiyası, Bakı, 2005.
3. Azərbaycan regionunun sistemli planı. Sosial araşdırmalar. İranın memarlıq və şəhərsalma araşdırmalar və tədqiqat mərkəzi.
4. Şərqi Azərbaycan ostanının statistikasının 2002. Şərqi Azərbaycan ostanının proqnozlaşdırma idarəetmə təşkilatı.

## ПРИРОДНО-ЭКОНОМИЧЕСКИЙ ПОТЕНЦИАЛ РАЗВИТИЯ ГОРОДА ТЕБРИЗ

**В.А.ЭФЕНДИЕВ, Т.А.ЭХТЕШАМ ГАДЖИПУР**

**РЕЗЮМЕ**

В статье рассматриваются основные природно-экономические условия и предпосылки формирования хозяйственной структуры города Тебриз и тенденции ее изменения. Выделяются основные центры развития, показывается районноорганизующая роль города Тебриз.

## NATURAL – ECONOMICAL POTENTIAL OF TEBRIZ CITY

**V.A.EFENDIYEV, T.A.EHTESHAM QADJIPUR**

**SUMMARY**

In presented article authors analyzed the main natural resources and conditions for development economical structure of Tebriz city and tendencies of its changes.

Authors showed city’s main economical centers and emphasized the role of Tebriz as central place for the whole region.